**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA AQRAR-SƏNAYE KOMPLEKSİNİN SƏMƏRƏLİ İNKİŞAFININ MALİYYƏ-BANK AMİLLƏRİ

İxtisas: 5301.01 – “Daxili fiskal siyasət və dövlət maliyyəsi”

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Jalə Məmmədəli qızı Əfəndiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın
**A V T O R E F E R A T I**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin “Maliyyə və maliyyə institutları” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor,
AMEA-nın həqiqi üzvü, akademik,
**Ziyad Əliabbas oğlu Səmədzadə**

**Rəsmi opponentlər:** İqtisad elmlər doktoru,
**Saleh Məmmədəli oğlu Məmmədov**

İqtisad elmlər namizədi, dosent
**Azim Heydər oğlu Abasov**

İqtisad üzrə fəlsəfə doktoru
**Orxan Mübariz oğlu Bağırov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** ____________ İmza — iqtisad elmləri doktoru, professor **Yaşar Atakişi oğlu Kəlbiyev**

ÜMUMİ ŞÖBƏ

**Dissertasiya şurasının elmi katibi:** ____________ İmza — iqtisad elmləri üzrə fəlsəfə doktoru **Suqra İnqilab qızı Hümbətova**

**Elmi seminarın sədri:** ____________ İmza — iqtisad elmləri doktoru, professor **Nizami Nəcəfqulu oğlu Xudiyev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Ölkə iqtisadiyyatının ən mühüm, aparıcı sahələrindən biri aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələridir. Onun inkişaf səviyyəsi ölkə iqtisadiyyatının inkişafının bir sıra parametrlərini şərtləndirir. İqtisadiyyatın inkişafının təmin edilməsində prioritet kimi seçilən diversifikasiya siyasətinin reallaşdırılmasında ən mühüm istiqamətlərdən biri məhz aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin səmərəli inkişafından ibarətdir. Bu kompleksin inkişafı ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsinin, əhalinin sosial rifahının yüksəldilməsinin, kənd yerlərində məşğulluğun səviyyəsinin yüksəldilməsinin, işsizliyin aşağı salınmasının, əhalinin ekoloji cəhətdən təmiz məhsullarla təmin edilməsinin, torpaqdan səmərəli istifadə edilməsinin, qeyri-neft sektorunun inkişaf etdirilməsinin, emal sənayesinin genişləndirilərək sürətlə inkişaf etdirilməsinin, bu sektorda sahibkarlığın genişləndirilməsinin, iri fermer təsərrufatlarının yaradılmasının, yeni innovativ texnikaların istifadəsinin stimullaşdırılması və s. əsasını təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: “Kənd təsərrüfatının inkişafı prioritet məsələdir. Bu sosial-iqtisadi sahədir, qeyri-neft sektorunun inkişafı üçün dəstəkdir.”

Bu sektorun qarşısında duran vəzifələrin vacibliyini nəzərə alaraq dövlətimiz onun inkişaf etdirilməsini daim diqqət mərkəzində və öz qayğısı altında saxlayaraq xeyli güzəşt tətbiq edir, imtiyazlar verir, sektorun normal inkişaf etdirilməsinə, öz məqsəd və vəzifələrinin icra olunmasına çalışır. Ölkədə fermerlər üçün bir sıra güzəştlərin müəyyən edilməsi, onların torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilməsi, onlara güzəştli şərtlərlə kreditlərin verilməsi, ayrı-ayrı sahələr üzrə dövlət tərəfindən subsidiyaların ayrılması, kənd təsərrüfatının inkişafına və səmərəliliyinin artırılmasına təkan verməkdir. Müxtəlif maliyyə mənbəələri hesabına, xüsusən də investisiya, kredit, bank vəsaitləri, lizinq və s. hesabına bu kompleksin inkişaf edirilməsi çox vacib məsələlərdən biridir. Vəsaitlərin çatışmazlığı şəraitində bu mənbəələrin operativ surətdə işə salınması, onlardan geniş istifadə edilərək kompleks üçün zəruri olan strateji məsələlərin sürətli həlli cəmiyyət üçün çox vacibdir. Səmərəli bank-maliyyə amillərinin geniş

surətdə tətbiq edilməsi aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin daha da inkişaf etdirilməsini təmin edə bilər. Bu həmin amillərin hansı səviyyədə və necə tətbiq edilə bilməsindən asılıdır. Məhz bu məsələnin düzgün təşkili, idarə edilməsi və tənzimlənməsi günün aktual problemi olaraq aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin qarşısında durur.

Bu kompleksin zəruri səviyyədə inkişaf etdirilməsi, onun qarşısında duran məsələlərin vacibliyi dövlət sənədlərində, o cümlədən "Azərbaycan 2020: gələcəyə baxış: inkişaf konsepsiyasında və "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"də öz əksini tapmışdır. Bu sənədlərdə sözü gedən müəssisələrin qarşısında duran və həlli vacib olan, cəmiyyətin maraqlarını təmin edən istiqamətlər və onların reallaşma vasitələri müəyyən edilmişdir.

Aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələri qarşısında cəmiyyətin taleyüklü iqtisadi problemləri durduqca bu məsələlər aktuallığını saxlayacaqdır.

Şübhəsiz, Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi altında şanlı Ordumuzun 44 günlük "Zəfər yürüşü" nəticəsində işğaldan azad edilmiş tarixi Qarabağ torpaqlarının da ölkənin aqrar istehsal və emal potensialının artırılmasında böyük rolu olacaqdır. Azərbaycan Prezidenti cənab İlham Əliyev xalqa müraciətləri zamanı dəfələrlə "Böyük Qayıdış" və Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatı sahəsində sahibkarlığın inkişafı məsələləri ilə bağlı strategiyalarını ifadə etmişdir. Heç şübhəsiz ki, ölkə Prezidentinin uğurlu siyasətinin davamı olaraq, işğaldan azad edilmiş rayonlarda aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin qurulması, onların investisiyalaşdırılması və kreditləşməsi məsələsi də işin aktual olduğunu bir daha göstərir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Azərbaycan Respublikasında aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin səmərəli inkişafının çoxsaylı parametrləri, onun nəzəri metodoloji məsələləri bu kompleksin fəaliyyətinin təşkili, idarə edilməsi, tənzimlənməsi və s. bu kimi məsələlər daimi olaraq həm tədqiqatçı alimlərin, həm iqtisadçıların, həm də praktiki sahədə çalışan

mütəxəssislərin diqqət mərkəzində olmuşdur. Qeyd edilən problemlərə dair həm klassik iqtisadçıların, həm xarici ölkə alimlərinin, həm də Azərbaycanlı mütəxəssislərin tədqiqatlarında dəyərli araşdırmalar aparılmışdır.

Aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin formalaşması, onun inkişafı, fəaliyyət prinsipləri, iqtisadi inkişafdakı rolu və əhəmiyyətinə dair fikirlərə xarici ölkələrin, o cümlədən avropalı, amerikalı alimlər olan N.Alexandratosun, J.Bruinsmanın, A.Levisin, D.Gollinin, S.Parentenin, R.Rogersonun, A.Srinivasanın, T.V.Griffinin, F.J.Piercenin, J.B.Barnettin, C.C.Zimmermanın, O.Melyukhinanın, P.Maitranın, S.Maitranın, G.B.Ahangarın, M.J.Padderin və sairlərin əsərlərində rast gəlmək olur.

SSRİ-nin dağılması nəticəsində müstəqillik əldə etmiş ölkələrdə yeni mülkiyyət münasibətlərinin fonunda tam, yeni tipli aqrar sənaye kompleksləri formalaşmağa başladı. Yeni yaranan bu sistemin təşkilinin nəzəri, metodoloji və praktiki məsələlərinə yeni yanaşma tələb edilirdi ki, bununla bağlı əsas mövqelərə, fikirlərə rus alimləri olan A.A.Artemevin, Q.Baklajenkonun, İ.N.Burobkinin, S.A.Qorlanovun, V.A.Dobrıninın, S.İ.Kovanovun, V.Loqinovun, O.V.Morozun, N.A.Pliçevin, E.V.Serovanın, V.Şaykinin, Q.Q.Şarifovun və s. tədqiqatlarında geniş yer ayrılmışdır.

Aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin fəaliyyətinin çoxsaylı problem və parametrləri azərbaycanlı alim və tədqiqatçıların da əsərlərində geniş yer tutmuşdur. Belə alim və tədqiqatçılara aşağıdakıları aid etmək olar: Z.A. Səmədzadə, M.Əhmədov, R.Həsənov, Ə.Babayev, İ.H.Alıyev, Ə.Ç.Verdiyev, Ə.Nuriyev, R.Ə.Balayev, A.Vəliyev, V.H.Abbasov, E.Ə.Quliyev, B.X.Ataşov, H.A.Xəlilov, A.T.Əhmədov, M.C.Hüseynov, R.K.İsgəndərov, S.V.Salahov, E.R.İbrahimov, R.Hüseynov, F.Fikrətzadə və başqaları.

Razılıq hissi ilə qeyd edilməlidir ki,problemin bir sıra aktual maliyyə-bank məsələləri Ə.Ələkbərov, Z.Məmmədov, M.Bağırov, S.Məmmədov, N.Xudiyev, E.Sadıqovun tədqiqatlarında öz əksini tapmışdır.

Lakin qeyd olunanlara baxmayaraq ölkəmizdə iqtisadi inkişafın yeni mərhələsində “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli

Prioritetlər" və "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramı"-da müəyyən edilmiş vəzifələrin, o cümlədən aqrar-sənaye kompleksinin səmərəli inkişafında bank maliyyə amillərinin təhlilinə ciddi ehtiyac olduğunu nəzərə alaraq bu mövzu tədqiqat istiqaməti kimi seçilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi Azərbaycan Respublikasında aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin səmərəli inkişafının maliyyə bank amillərinin inkişaf etdirilməsinin əsasında bu kompleksin hərtərəfli inkişafına nail olunması üçün vasitə, üsul və parametrlərin aşkara çıxarılmasından ibarətdir. Bunun üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi qarşıya məqsəd kimi qoyulmuşdur:

- respublikamızda kənd təsərrüfatının inkişafının müasir səviyyəsinin təhlil edilməsi və əhalinin ərzaq təminatında onun rolunun müəyyən edilməsi;
- iqtisadiyyatın aqrar-sənaye bölməsində maliyyələşdirmənin xüsusiyyət və funksiyalarının müəyyən edilməsi;
- aqrar-sənaye bölməsinə bank xidmətinin formalaşması və inkişaf təcrübəsinin öyrənilməsi;
- aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin fəaliyyətinin maliyyə təminatnın vəziyyətinin araşdırılması və nəticələrin təhlil edilməsi;
- aqrar-sənaye sektoruna bank xidməti və onun səviyyəsinin qiymətləndirilməsi;
- Sahibkarlığın İnkişafı Fondu vəsaitləri hesabına həyata keçirilən layihələr və onlara bank xidmətinin səviyyəsinin müəyyən edilməsi;
- iri təsərrüfatların yaradılmasının obyektiv zəruriliyinin əsaslandırılması və onların inkişafında maliyyə-bank sisteminin rolunun artırılması istiqamətlərinin müəyyən edilməsi;
- aqrar-sənaye bölməsinin maddi-texniki bazasının möhkəmləndirilməsində bank xidmətinin keyfiyyətinin artırılması istiqamətlərinin müəyyən edilməsi;
- aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrində ekoloji təmiz məhsulların istehsal edilməsində və ixrac yönümlü məhsulların stimullaşdırılmasında maliyyə bank sisteminin yaxşılaşdırılması istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti olaraq Azərbaycan Respublikasının aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələri seçilmişdir.

**Tədqiqatın predmeti.** Ölkənin aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin fəaliyyətinin təşkili, tənzimlənməsi və idarə olunması prosesində ortaya çıxan nəzəri, praktiki məsələlərin və həmçinin həmin kompleksin səmərəli inkişafında tətbiq edilən maliyyə bank amillərinin öyrənilməsi üçün istifadə edilən üsul və qaydaların məcmusundan ibarətdir.

**Tədqiqatın nəzəri metodoloji əsasını** Azərbaycan Respublikası Prezidentinin aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin fəaliyyətinə dair fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Milli Məclisin aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinə dair qəbul etdiyi qərar və qanunlar, digər hökumət orqanları tərəfindən bu kompleksin fəaliyyətinə dair qəbul olunmuş normativ, hüquqi aktlar, Azərbaycan və xarici ölkələrin alim və tədqiqatçılarının cari problemə həsr olunmuş elmi əsərləri, dərslikləri, monoqrafiyaları, məqalələri və s. elmi tədqiqat işləri təşkil edir.

Aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin səmərəli inkişafının tədqiqi aparılaraq, onun müasir vəziyyəti təhlil olunarkən və onun səviyyəsi qiymətləndirilərkən tədqiqatın statistik, müqayisəli təhlil, sintez, normativ praqmatik, sistemli kompleks, balans və digər üsullardan istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası**. Dissertasiya mövzusu üzərində tədqiqat aparılarkən Azərbaycan Respublikası Statistika Komitəsinin illik məcmuələrindən, Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun materiallarından informasiya bazası kimi istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas elmi müddəalar** aşağıdakılardan ibarətdir:

- aqrar sektorun fəaliyyətinə və onun maliyyələşməsinə dair nəzəri-konseptual yanaşmalar, aqrar sahədə bank xidmətlərinin inkişaf xüsusiyyətlərinin araşdırılması;
- aqrar sektorda bank xidmətinin formalaşması üzrə qabaqcıl

beynəlxalq təcrübə, onun üstünlüklərinin Azərbaycanda tətbiqi istiqamətində tövsiyələr;

- ölkədə aqrar sektorun maliyyə təminatı və bank sektorunun mövcud vəziyyətinə dair təhlillər və qiymətləndirmələr, bank kreditləşməsinə dair problemlərin həlli yolları;

- iri təsərrüfatların yaradılmasına bankçılıq prizmasından yanaşmalar, onun obyektiv zəruriliyi və üstünlüklərin elmi əsaslandırmaları;

- ekoloji təmiz və ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalına, həmçinin bu istiqamətdə maliyyə-bank sisteminin fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- respublikamızda kənd təsərrüfatının müasir inkişaf səviyyəsi geniş təhlil edilmiş və əhalinin ərzaq təminatında onun rolu əsaslandırılmışdır;

- aqrar-sənaye bölməsində maliyyələşdirmənin xüsusiyyətləri və funksiyaları araşdırılmış, bu prosesin təkmilləşdirilməsi istiqamətində hüquqi və kommersiya mühitinin yaradılması, dövlət zəmanətlərinin, subsidiyaların verilməsi kimi əsaslı təkliflər verilmişdir;

- aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin fəaliyyətinin əsas parametrləri dünyanın bir neçə ölkəsinin timsalında dərindən öyrənilmiş, onun qabaqcıl elementləri dəyərləndirilmiş, qanunauyğunluqları öyrənilərək onların ölkəmizdə tətbiqi mexanizmi müəyyənləşdirilmişdir;

- aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin fəaliyyət göstəriciləri əsasında bu kompleksin müasir vəziyyəti geniş və hərtərəfli təhlil olunmuş, mövcud vəziyyət dəyərləndirilmiş, nəticələr qiymətləndirilmişdir;

- ölkəmizdə aqrar sahədə iri təsərrüfatların yaradılmasının zəruriliyi əsaslandırılmış, onların inkişafında və aqrar sənaye bölməsinin maddi texniki bazasının möhkəmləndirilməsində, qabaqcıl innovativ yanaşmaların tətbiqində, həmçinin ixracyönümlü məhsulların istehsalının stimullaşdırılmasında maliyyə-bank amillərinin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti**. Aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin səmərəli inkişafının

maliyyə-bank amillərinin öyrənilməsi və təkmilləşdirilməsi sahəsində aparılan tədqiqat nəticəsində əldə olunmuş konseptual müddəalar, irəli sürülən konkret təkliflər tədqiq edilən kompleksin gələcəkdə daha da inkişaf etdirilməsində, zəruri proqramların qəbul olunmasında, funksional və məqsədli proqram və proqrnozların tərtib olunmasında, aid olduğu sahəyə dövlətin iqtisadi siyasətinin təşkil olunmasında geniş istifadə edilə bilər.

Bununla paralel olaraq tədqiqatın materialları tədris prosesində "Aqrar sahənin iqtisadiyyatı", "Aqrar iqtisadiyyatın təşkili", "Aqrar iqtisadiyyatın maliyyələşdirilməsi" və s. kimi fənlərin tədrisində geniş istifadə edilə bilər. Eyni zamanda tədqiqat materialları aqrar kompleks üçün kadr hazırlığı prosesində və təcrübi fəaliyyətdə də tətbiq oluna bilər.

**Tədqiqatın nəticələrinin tətbiqi**. Tədqiqatın nəticələri və əsas müddəaları 2015-2020-ci illər ərzində beynəlxalq və respublika miqyaslı konfrans, simpozium və seminarlarda məruzə olunmuş və müzakirə edilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (13904 işarə), üç fəsil (I fəsil – 74829 işarə, II fəsil – 76908 işarə, III fəsil - 79545 işarə), nəticə (10955 işarə) və 150 adda ədəbiyyat siyahısından ibarət olmaqla, 19 qrafik və cədvəli özündə birləşdirir. Dissertasiya işi qrafiklər, cədvəllər və ədəbiyyat siyahısı istisna olmaqla 256141 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

**Giriş**

**I Fəsil. Aqrar-sənaye kompleksində maliyyənin xüsusiyyətləri, funksiyaları və aqrar sektora bank xidməti təcrübəsi**

1.1. Kənd təsərrüfatının inkişafının müasir səviyyəsi və əhalinin ərzaq təminatında onun rolu

1.2. Aqrar-sənaye bölməsində maliyyələşdirmənin xüsusiyyətləri və funksiyaları

1.3. Aqrar sənaye bölməsində bank xidmətinin formalaşması və inkişafının dünya təcrübəsi

**II Fəsil. Aqrar-sənaye kompleksinin maliyyə iqtisadi göstəricilərinin qiymətləndirilməsi**

2.1. Aqrar-sənaye kompleksinin fəaliyyətinin maliyyə təminatı və nəticələri

2.2. Aqrar-sənaye sektorunda bank xidməti və onun qiymətləndirilməsi

2.3. Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına həyata keçirilən layihələr və onlara bank xidməti

**III Fəsil. Müasir mərhələdə azərbaycanda aqrar-sənaye kompleksinin daha da inkişafı məqsədi ilə sahənin maliyyə-bank sisteminin təkmilləşdirilməsinin istiqamətləri**

3.1. İri təsərrüfatların yaradılmasının obyektiv zəruriliyi və inkişafında maliyyə-bank sisteminin rolunun artırılması

3.2. Aqrar-sənaye bölməsinin maddi texniki bazasının möhkəmləndirilməsində bank xidmətinin keyfiyyətinin artırılması yolları

3.3. Aqrar-sənaye kompleksində ekoloji təmiz məhsulların istehsal edilməsində və ixrac yönümlü məhsulların stimullaşdırılmasında maliyyə-bank sisteminin fəaliyyətinin yaxşılaşdırılması tədbirləri

**Nəticə**
**Ədəbiyyat siyahısı**

## MÜDAFİƏYƏ ÇIXARILAN ƏSAS ELMİ MÜDDƏALAR

**1.Aqrar sektorun fəaliyyətinə və onun maliyyələşməsinə dair nəzəri-konseptual yanaşmalar, aqrar sahədə bank xidmətlərinin inkişaf xüsusiyyətlərinin araşdırılması.**

Dünya ölkələrinin iqtisadiyyatları inkişaf etdikcə sənaye və texnoloji yeniliklərin təsiri ilə işçi qüvvəsi kənd təsərrüfatından daha çox sənaye və yüksək texnologiyaların üstünlük təşkil etdiyi sektorlarda cəmlənməyə başlayır. Lakin, bu prosesin baş verməsi kənd təsərrüfatının əhəmiyyətinin az olması anlamına gəlməməlidir. Dünya nə qədər inkişaf etsə də əhalinin ərzaq ilə təmin edilməsi məsələsi hər zaman gündəmdədir. Kənd təsərrüfatı daha çox əməyə əsaslanan bir sahə olduğundan xüsusilə əhalisi çox olan ölkələr üçün əsas iqtisadi fəaliyyət sahəsinə çevrilmişdir. Buna misal olaraq Hindistanı göstərmək olar. Əhalisi çox olan ölkələrin istər ərzaq təminatı ilə bağlı, istərsə də sənayeləşməyə və texnoloji inkişafa keçid ilə bağlı çətinlikləri daha çoxdur. İnkişaf etmiş ölkələrdə isə kənd təsərrüfatında işçi qüvvəsinin payının azalması eyni zamanda onunla bağlıdır ki, bu sahələrdə tətbiq edilən texnoloji yeniliklər daha az işçi qüvvəsi ilə daha çox məhsuldarlıq əldə etməyə imkan verir. Məsələn, Niderland, İsrail və Danimarka sənaye və texnoloji baxımdan inkişaf etməklə yanaşı dünyanın kənd təsərrüfatları bazarlarında böyük paya malikdirlər.

İqtisadiyyatın digər sahələrində olduğu kimi aqrar-sənaye bölməsinin inkişafının həyata keçirilməsində də maliyyələşdirmənin rolu böyükdür. Maliyyələşdirmə vasitəsilə aqrar-sənaye bölməsində fəaliyyət göstərən iqtisadi subyektləri zəruri maliyyə vəsaitləri ilə təmin etmədikdə bu sahədə maddi-texniki bazanı böyütmək imkanları azalır, bu da nəticədə inkişafın təmin edilməsinə maneə olur. Maliyyə çatışmazlığına görə fəaliyyətin davamlılığı pozularsa o zaman sonradan maliyyə vəsaitlərinin cəlb edilməsi imkanı yarandıqda belə artıq pozulmuş istehsal prosesinin zərərli nəticələrinin qarşısını almaq çətin olur. Bununla yanaşı aqrar-sənaye bölməsində maliyyələşdirmənin digər özünəməxsus xüsusiyyəti onun mövsümi xarakterə malik olmasıdır. Burada maliyyələşmə əsasən uzun müddətli dövr üçün nəzərdə tutulmalı və borc vəsaitlərinin geri qaytarılmasının məhsul istehsalının və satışının həyata keçirildiyi mövsümdə tələb edilməsi

daha məqsədəuyğundur.

Aqrar-sənaye bölməsində maliyyələşmənin digər sahələrdən tamam fərqli olan xüsusiyyətləri mövcuddur. Bu xüsusiyyətlər sahənin maliyyələşdirilməsi funksiyalarına da əsaslı sürətdə təsir edir. Sözsüz ki, istənilən sahə üçün maliyyələşmənin əsas funksiyaları mövcuddur. Lakin, mikro səviyyədə hər bir sahə üzrə maliyyələşdirmə özünəməxsus funksiyalara da malikdir. Buna görə də maliyyələşdirmə prosesində bu funksiyalar özünü qabarıq şəkildə göstərərək onun səmərəliliyinin yüksəldiməsinə imkan yaradır. Bütün bunların böyük əhəmiyyət daşıdığını nəzərə alaraq aqrar sənaye bölməsində maliyyələşdirmənin istər xüsusiyyətlərinin, istərsə də funksiyalarının daha dərindən təhlil edilməsinin tədqiqat işi üçün əhəmiyyəti böyükdür.

Aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrində maliyyələşdirmənin əsas xüsusiyyətlərini aqrar sektorda fəaliyyət göstərən iqtisadi subyektlərlə yanaşı bu sahədə maliyyələşdirməni həyata keçirən maliyyə təşkilatlarının bu sahəyə yanaşması və bu sahədə maliyyələşdirməni həyata keçirdiyi zaman qarşılaşdığı problemlər də müəyyən edir. Aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrində maliyyələşdirmənin əsas xüsusiyyətlərindən biri də bu sahədə borcverənlər üçün risklərin daha böyük olmasıdır.

Azərbaycan üçün də aqrar sektor böyük əhəmiyyət daşıyan sahələrdən biri olduğundan bu sahəyə yönəldilmiş kredit qoyuluşlarının həcmi son illərdə artmışdır. Bu həm aqrar sektorun Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi və idxalın yerli məhsullar hesabına əvəz edilməsi ilə bağlıdırsa, həm də bu sektorda əmək qüvvəsinin böyük hissəsinin cəmlənməsi ilə bağlıdır. Statistik rəqəmlərə nəzər salsaq görə bilərik ki, bu sahəyə kredit qoyuluşlarının həcmi böhran dövründə azalsa da 2018-ci ildən başlayaraq yenidən artmışdır. 2014-2017-ci illərdə aqrar sektorda kredit qoyuluşları 417 milyon manat azalaraq 429.2 milyon manat olsa da 2022-ci ildə yenidən artaraq 629.1 milyon manata çatmışdır (Qrafik 1.1).




**Qrafik 1. Aqrar sektorda kredit qoyuluşları (milyon manat)**

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Ümumilikdə, böhranın təsirinin hiss olunduğu dövrlərdə bu sahədə kredit qoyuluşlarının azalma tempi digər sahələr ilə müqayisədə daha az olmuşdur. Bu isə sahənin böyük əhəmiyyət daşıması və böhrandan sonra həyata keçirilməsinə əsas diqqət yetirilən iqtisadiyyatın diversifikasiyasının əsas komponentərinin biri olması ilə bağlıdır.

Böhran dövründə bank sistemində yaşanan durğunluq vaxtı keçmiş kreditlərin həcminin də artmasına səbəb olmuşdur. Manatın ucuzlaşması bir çox borc götürənlərin borc yükünü artırdığından bu prosesə əsaslı sürətdə təsir etmişdir. Nəticədə iqtisadiyyata kredit qoyuluşlarının ümumi həcmi azalmış, vaxtı keçmiş kreditlərin həcmi isə artmışdır.

Dünya təcrübəsində olduğu kimi Azərbaycan hökuməti də aqrar sektorda maliyyələşmənin zəruri səviyyəsinin qorunması üçün müxtəlif tədbirlər həyata keçirir. Bura istər dövlət büdcəsindən birbaşa vəsaitlərin ayrılması, istərsə də yaradılmış müxtəlif dövlət təşkilatları vasitəsilə güzəştli kreditlərin verilməsi aiddir. Əgər aqrar sektora ayrılmış büdcə xərclərinə nəzər salsaq görərik ki, onun həcmində böhran dövründə müəyyən azalma baş versə də, daha sonralar stabil artaraq 2020-ci ildə ən yüksək həddinə çatmışdır (Qrafik 2). Bu isə həm aqrar sektorun post-neft dövründə inkişaf etdirilən əsas sahələrdən biri olması ilə, həm də bu sektorda davamlı maliyyələşmənin təşkil edilməsinin zəruriliyi ilə əlaqədardır.




**Qrafik 2. Aqrar sektora ayrılmış büdcə vəsaitləri (milyon manat)**

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Qeyri-neft sektorunun əsas sahələrindən biri olmaqla aqrar sektorun zəruri və davamlı şəkildə maliyyələşməsinin zəruriliyi hökumət tərəfindən prioritet sahələrdən biri olduğundan bu istiqamət üzrə dövlət xərclərinin həcmi artırılmışdır. Belə artımın olması və gecikmiş kredit borclarının payının yüksək olması ehtimalları onu deməyə əsas verir ki, aqrar sektorun bu kreditlərdə payı yüksəkdir. Bu payın yüksək olması və ümumiyyətlə aqrar sektorun maliyyələşdirilməsi ilə bağlı problemlərin mövcud olması hökumətin aqrar istiqamətdə xərcləri artırmaq qərarı verməsi ilə nəticələnmişdir. 2019 və 2020-ci illərin proqnozlaşdırılan büdcə xərclərinin strukturuna nəzər saldıqda biz  bunun şahidi oluruq. Belə ki, 2019-cu ildə aqrar sektora ayrılacaq büdcə xərcləri 2018-ci illə müqayisədə 1.3 dəfə və ya 178.4 milyon manat , 2020-ci ildə isə 2019-cu ilin müvafiq göstəricisi ilə müqayisədə 40.1% və ya 343.3 milyon manat artırılmışdır. 2021-ci ildə azalma baş versədə, 2022-ci ildə yenidən artmışdır.

Azərbaycan hökuməti aqrar sektorun maliyyələşməsinin təkmilləşdirilməsi üçün müxtəlif təşkilatların yaradılmasına da imkan yaratmışdır. Belə təşkilatlardan biri də 1987-ci ildən fəaliyyət göstərən "Aqrarkredit" Səhmdar Kredit Təşkilatıdır. Bu təşkilatın əsas məqsədi aqrar sektorda fəaliyyət göstərən kiçik və orta sahibkarları və ev təsərrüfatlarına malik olan kəndliləri öz fəaliyyətləri üçün zəruri olan

maliyyə vəsaitləri ilə təmin etməkdir.

Aqrar sektorda maliyyələşmənin xüsusiyyətləri digər sektorlarla müqayisədə əhəmiyyətli dərəcədə fərqlənir.

Aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrində maliyyələşmə çoxşahəli olmaqla yanaşı özündə böyük risklər də daşıyır. Buna görə də əksər hallarda dövlətlər bu sahənin inkişafına dəstək vermək məqsədilə müxtəlif maliyyə mexanizmləri ilə maliyyə təşkilatları üçün aqrar sektorda maliyyələşmənin risklərinin azaldılmasına çalışırlar. Azərbaycan hökuməti də dövlət zəmanətləri və güzəştli kreditlər vasitəsilə aqrar sahədə maliyyələşməni dəstəkləyərək bu sahədə səmərəliliyin yüksəldilməsinə çalışır.

Hökumət tərəfindən həyata keçirilən bu tədbirlər eyni zamanda aqrar sahədə maliyyələşmənin funksiyalarının tam yerinə yetirilməsinə imkan yaradacaqdır ki, bu da aqrar sektorun istər gəlirlərin formalaşmasında, istərsə də əlavə dəyərin yaradılmasında payını artıracaqdır. Nəticə etibarı ilə qeyri-neft sektorunun inkişafı strategiyası dəstəklənmiş olacaq və qida təhlükəsizliyinin təmin edilməsi yüksələcəkdir.

**2. Aqrar sektorda bank xidmətinin formalaşması üzrə qabaqcıl beynəlxalq təcrübə, onun üstünlüklərinin Azərbaycanda tətbiqi istiqamətində tövsiyələr.**

Aqrar sənayenin iqtisadiyyatın əsas sahələrindən birinə çevrilməsi ilk növbədə onun qida təhlükəsizliyi baxımından əhəmiyyəti ilə bağlıdır. Qida təhlükəsizliyi ölkənin milli təhlükəsizliyinin əsas komponentlərindən biridir. Kənd təsərrüfatı sahəsini vacib edən digər məsələ isə bir çox inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrdə bu sahənin böyük işçi qüvvəsini özündə birləşdirməsidir. Həmin ölkələrdə işçi qüvvəsinin böyük hissəsi yüksək təhsilli deyildir və nəticədə işçi qüvvəsi kənd təsərrüfatı kimi daha yüksək əmək tutumlu sahələrdə cəmlənmişdir.

İnkişaf edən ölkələrin tarixinə nəzər salsaq görürük ki, bu ölkələr də ilk mərhələdə kənd təsərrüfatını sürətlə inkişaf etdirmişlər. Sonrakı mərhələlərdə isə bu ölkələrdə sənaye və texnologiya kimi aşağı əmək tutumlu sahələrin inkişafı təmin edilmişdir. Buna nümunə kənd təsərrüfatı ölkəsi olan Çin qısa müddət ərzində yüksək iqtisadi artım tempi əldə edərək dünyanın ikinci ən böyük iqtisadiyyatına çevrilmişdir. Bir sıra inkişaf etmiş ölkələr vardır ki, hal-hazırda da onların

iqtisadiyyatlarında kənd təsərrüfatının əhəmiyyəti böyükdür və kənd təsərrüfatı məhsullarının ixracı onlara böyük gəlirlər gətirir. Nümunə olaraq Danimarkanı, İsraili və Hollandiyanı göstərmək olar. Bu ölkələrin inkişaf səviyyəsinin yüksək olması onlarda kənd təsərrüfatının da innovasiyalarla zəngin olmasına gətirib çıxarmışdır. Kənd təsərrüfatının inkişafının təmin edilməsi bu sahənin maliyyələşmə səviyyəsinin nə dərəcədə olmasından asılıdır. Bu cəlbediciliyin və məqbul maliyyələşmə səviyyəsinin təmin edilməsi üçün dövlətlər kənd təsərrüfatının maliyyələşdirilməsi üçün müxtəlif mexanizmlərdən istifadə edirlər. Tətbiq edilən mexanizmlər, istifadə edilən maliyyələşmə metodları, kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən islahatlar və maliyyələşməni həyata keçirmək üçün yaradılan təşkilatlar ölkələrin iqtisadi sistemlərindən asılı olaraq bir-birindən fərqlənir. Bu baxımdan dünyanın müxtəlif ölkələrinin kənd təsərrüfatının maliyyələşmə təcrübəsinin öyrənilməsinin tədqiqat işi üçün əhəmiyyəti böyükdür.

Dünyanın müxtəlif ölkələrində aqrar sektorun maliyyələşdirilməsi hökumətlərin diqqət ayırdığı məsələlərdən biridir. Bunun nəticəsidir ki, təcrübəsini nəzərdən keçirdiyimiz ölkələrin iqtisadiyyatlarında kənd təsərrüfatının payının böyük olması bu sahənin inkişafının davamlılığının təmin edilməsi üçün hökumətləri müxtəlif proqramlar həyata keçirməyə, islahatlar tətbiq etməyə və təşkilatlar yaratmağa sövq edir. Kənd təsərrüfatının maliyyələşdirilməsi strategiyaları və bu strategiyaların əsas istiqamətləri hər bir ölkənin iqtisadi şəraitinə və tələblərinə uyğun şəkildə həyata keçirilir. İnkişaf etmiş dövlətlər aqrar sektorun maliyyələşdirilməsi zamanı innovasiyaların tətbiqi və təmiz texnologiyaların istifadəsinə daha çox üstünlük verdiyi halda, inkişaf etməkdə olan ölkələr regionlarda kənd təsərrüfatının maliyyələşdirilməsinin yüksəldilməsinə daha çox diqqət ayırırlar.

Kanada, Danimarka, Israil və Hindistanın aqrar sənaye bölməsində bank xidmətinin formalaşması və inkişafı təcrübəsinin bizim ölkədə tətbiqi məqsədəuyğun hesab edilə bilər. Danimarkada fond və layihə maliyyələşdirilməsi alətləri, xüsusilə "Aqrobiznes Fondu" və "İnkişaf Fondu"nun yaradılması və onların gənc fermerlərin kreditləşməsində xüsusi yanaşması diqqət cəlb edir. Kanadada kənd təsərrüfatı kooperativlərinə güzəştli kreditlər və avans ödənişləri ilə bağlı proqramların qəbul edilməsi, aqrar innovativ layihələrin

kreditləşdirilməsi məsələləri nümunə kimi göstərilir. Hindistanda bank ilə əməliyyatlar aparmaqda təcrübəsi az olan fermer və kəndlilərin maliyyə vəsaitlərinə çıxışının təmin edilməsi, anbar sənədləri ilə güzəştli kredit əldə edilməsi təcrübəsi əhəmiyyətli nəticələr əldə edilməsinə təkan vermişdir. Aqrar sektorda innovativ üsullardan geniş istifadə edən İsrailin təcrübəsindən faydalanaraq mövcud resurslardan effektiv istifadə edib məhsuldarlığı artıra bilərik. Qeyd edək ki, torpaqlarının cəmi 20% kənd təsərrüfatına yararlı olan İsrail ölkə əhalisinin ərzaq təminatını 95% öz hesabına təmin edir. Fikrimizcə, qeyd edilən müsbət təcrübələrin Azərbaycanda tətbiq edilməsi aqrar maliyyələşmə problemlərinə əsaslı həll yolu tapmağa imkan verir.

**3. Ölkədə aqrar sektorun maliyyə təminatı və bank sektorunun mövcud vəziyyətinə dair təhlillər və qiymətləndirmələr, bank kreditləşməsinə dair problemlərin həlli yolları.**

Aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin inkişafında maliyyə təminatının rolu böyükdür. Aqrar sektor istər gəlirlilik, istərsə də əmək məhsuldarlığı baxımından digər sahələrdən geri qaldığı üçün bu sahədə maliyyə təminatı daha vacibdir. Bir çox hallarda aqrar sektora dövlətin maliyyə dəstəyinin bazar iqtisadiyyatının prinsiplərinə uyğun gəlmədiyi tənqid edilir. Lakin, bu sahənin qida təhlükəsizliyi və əhalinin gündəlik əsas istehlak məhsulları istehsal edilməsi baxımından böyük əhəmiyyət daşıması dövlətləri bu sahəyə dəstək vermək məcburiyyətində qoyur. Azərbaycan hökuməti də aqrar sahənin inkişafını daima nəzarətdə saxlayaraq bu sahənin inkişafının təmin edilməsi üçün müxtəlif layihələr üçün subsidiyalar ayırır.

Aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin maliyyə təminatında **dövlət büdcəsi** əsas rola malikdir. Hər ilin dövlət büdcəsində kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi məqsədilə maliyyə vəsaitləri ayrılır. Dövlətin həyata keçirdiyi iqtisadi strategiya və siyasətin xüsusiyyətləri kənd təsərrüfatına ayrılan vəsaitlərin həcminə əsaslı sürətdə təsir edir. Son illərdə neft qiymətlərinin azalması nəticəsində iqtisadiyyatda müşahidə edilən geriləmə büdcə xərclərinin həcminə də təsir etmişdir.

Aqrar sənaye kompeksinin maliyyə təminatında maliyyə mənbələrindən biri də **əsas kapitala yönəldilmiş investisiyalardır**.

Büdcə vəsaitlərindən fərqli olaraq əsas kapitala yönəldilmiş investisiyaların cəlb edilməsi sekotrun özünün nə dərəcədə inkişaf etməsi ilə bağlıdır. Yəni sektorda iqtisadi fəaliyyət gəlirlilik və istehsal baxımından səmərəli olmasa o zaman investissiyaların cəlb edilməsi də çətinləşir. Bu sektorun dövlət büdcəsi vəsaitləri hesabına maliyyələşdirilməsi əslində qeyd etdiyimiz rəqabətli mühitin formalaşmasında ilkin şərtlərdən biri kimi çıxış edir. Yeni iqtisadi modelə əsasən qeyri-neft sektorunun inkişaf etdirilməsində aqrar sektor əsas sahələrdən biri olduğu üçün bu sahəyə investisiyaların cəlb edilməsinin əhəmiyyəti böyükdür. Bu baxımdan cari ildə və gələcəkdə aqrar sahəyə ayrılan dövlət büdcəsi vəsaitlərinin həcminin artırılması bu sahənin cəlbediciliyini daha da artıracaqdır ki, bu da aqrar sektorda əsas kapitala yönəldilən investisiyaların həcminin artmasına imkan yaradacaqdır.

Aqrar sahədə son illərdə əsas kapitala yönəldilən investisiyaların həcmində baş verən dəyişikliklər büdcə xərclərində baş verən dəyişikliklərə uyğun şəkildə baş vermişdir. Yəni böhran dövründə azalma müşahidə edilsə də sonradan artım qeydə alınmışdır. Belə ki, 2013-2016-cı illərdə aqrar sektorda əsas kapitala yönəldilən investisiyalar 574,3 milyon manatdan 325,1 milyon manata qədər azalmışdır. 2017-cı ildə isə təxminən iki dəfəyə qədər artaraq 617 milyon manatı ötmüş, lakin 2019-cu ildən etibarən azalaraq 2021-ci ildə 341.9 milyon manat həcmində olmuş, 2022-ci ildə cüzi artım müşahidə olunmuşdur (Qrafik 3).




**Qrafik 3. Kənd və meşə təsərrüfatı, balıqçılıq sahəsində əsas kapitala yönəldilmiş investisiyalar**

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin əsas maliyyə təminatı mənbələrindən biri də aqrar sahəyə yönəldilmiş **kredit qoyuluşlarıdır**. Kredit qoyuluşları kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən iqtisadi subyektlərin öz fəaliyyət imkanlarını genişləndirməyə şərait yaratmaqla istehsalın artırılmasına və yaradılan dəyərin həcminin yüksəldilməsinə imkan yaradır. Kredit qoyuluşları böhran dövründə azalsa da sonrada artıma meylli olmuşdur.

Aqrar sektorda yaradılan ÜDM-in ümumi ÜDM-də payına gəldikə isə burada dəyişiklik, həcmdə baş verən dəyişikliyə uyğun formada olmamışdır. Belə ki, 2014-cü ildə aqrar sektorun payı ötən il ilə müqayisədə 0,1% azalaraq 5,3% təşkil etmişdir. Daha sonra isə 2015-ci ildə 6,2% səviyyəsinə çatmışdır. Növbəti iki ildə isə 5,6%-ə qədər azalaraq sabit qalmışdır. 2018-2020-ci illər ərzində bu pay yenidən artım trendinə keçid edərək 2020-ci ildə ən yüksək həddə-6,9%-də qərarlaşmışdır (Qrafik 4). Son iki ildə aqrar sektorun ÜDM-də payının ÜDM-in həcmindəki artıma baxmayaraq sabit qalması onu göstərir ki, bu sahədə yaradılan ÜDM özünün əhəmiyyətini qoruya bilmişdir.




**Qrafik 4. Kənd və meşə təsərrüfatı, balıqçılıq sahəsində yaradılmış ÜDM (milyard manat)**

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Gördüyümüz kimi son ildə maliyyə təminatının yüksəldilməsi nəticəsində istər aqrar sektorun ümumi məhsulunda, istərsə də bu sahədə yaradılan ÜDM-in həcmində artım müşahidə edilmişdir. Bu isə

onu göstərir ki, maliyyə təminatı bu sahədə səmərəli şəkildə həyata keçirilmiş və ayrılmış maliyyə vəsaitlərinin səmərəli formada xərclənməsi iqtisadi aktivliyi yüksəltməklə müsbət nəticələrin əldə edilməsinə imkan yaratmışdır.

Aqrar sahədə bank xidmətlərinin geniş yayılmaması yalnız bank sistemində müşahidə edilən durğunluqla bağlı deyildir. Bankların sağlamlaşdırılması prosesi bitdikdən sonra da aqrar səhədə bank xidmətlərinin genişləndirilməsi üçün mövcud olan bir çox problemlərin aradan qaldırılmasına ehtiyac olacaqdır. Azərbaycanda aqrar sahədə bank xidmətlərinin zəif inkişaf etməsinin səbəblərindən biri bu sahə üçün banklarda bilik və bacarıqların zəruri səviyyədə olmamasıdır. Bankların aqrar sahədə fəaliyyətinin genişləndirilməsi üçün həm aqrar sahənin, həm də bank sektorunun xüsusiyyətlərinə bələd olan kadrların olması vacibdir.

Apardığımız təhlillərdən o nəticəyə gələ bilərik ki, aqrar sektorda bank xidmətlərinin inkişaf etdirilməsi digər sahələr ilə müqayisədə özünəməxsus xarakterə malikdir. Bu ilk növbədə aqrar sektorun təbii resurslarla və təbii yarana biləcək risklərlə daha çox əlaqəli olması ilə bağlıdır. Bu isə bu sahənin maliyyə təhlükəsizliyi baxımından proqnozlaşdırılmasını çətinləşdirir. Bu da öz növbəsində bankların aqrar sahəni maliyyələşdirməkdən çəkinməsinə gətirib çıxarır.

Hesab edirik ki, bankların aqrar sektorun maliyyələşdirilməsində əsas mənbəyə çevrilməsi istər aqrar sektorun inkişafına, istərsə də bank sisteminin inkişafına imkan yaradacaqdır.

Aparılan təhlilin nəticələri onu deməyə əsas verir ki, aqrar sahənin səmərəli maliyyələşdirilməsi, o cümlədən kreditləşmənin düşünülmüş qaydada aparılması məqsədilə Azərbaycan Respublikasında ixtisaslaşdırılmış aqrar-sənaye bankı yaradılmalıdır. Bu nə qədər tez baş verərsə ölkədə kənd təsərrüfatının inkişafına bir o qədər tez təsir edərdi.

**4. İri təsərrüfatların yaradılmasına bankçılıq prizmasından yanaşmalar, onun obyektiv zəruriliyi və üstünlüklərin elmi əsaslandırmaları.**

Azərbaycanda aqrar sahədə müəssisələrin payının artmasına baxmayaraq o hələ də aşağı səviyyədədir. İri müəssisələrin sayının çox olması aqrar sahədə maddi-texniki bazanın möhkəmləndirilməsində bank xidmətlərinin rolunu və keyfiyyətini artırır. Banklar öz

müştərilərinin ehtiyaclarını ən yüksək səviyyədə ödəməyə çalışırlar və bunun üçün daha keyfiyyətli xidmətlər təklif etməyə başlayırlar. İri təsərrüfatların artırılması üçün hüquqi, gömrük və vergi islahatları həyata keçirilməlidir. İslahatlar iri müəssisələrin fəaliyyətinə cəlbedici olan güzəştlər və yardım tədbirlərini özündə əhatə edə bilər.

**Texnoloji yeniliklərdən istifadə edilməsi.** Baxılan sahədə texnoloji yeniliklərin tətbiqi və qabaqcıl texnologiyalardan istifadə maddi-texniki bazanın möhkəmləndirilməsində bank xidmətlərinin keyfiyyətinə dolayı olsa da əhəmiyyətli dərəcədə təsir edir. Qabaqcıl texnologiyalardan istifadə edilməsi aqrar sahədə istehsal imkanlarını genişləndirdiyindən və onları təmiri və saxlanılması üçün daha çox maliyyə vəsaitləri tələb edildiyindən bank xidmətlərinə olan ehtiyac artmış olur. Digər tərəfdən belə texnologiyalar aqrar sahədə rəqabəti gücləndirdiyindən müəssisələrin maraqlarını artırır ki, bu da bank xidmətlərinin daha da genişlənməsinə və keyfiyyətinin yüksəlməsinə səbəb olur.

**Rəqabətli mühitin formalaşdırılması**. Rəqabətli mühitin olması aqrar-sənaye sahəsinin inkişafına imkan yaradır. Bu genişlənmənin təmin edilməsi üçün əlavə maliyyə vəsaitlərinə ehtiyac yaranır. Nəticədə, bankların bu sahədə iştirakına olan ehtiyac artır. Azərbaycanda aqrar sahədə dövlətin iştirakı və böyük dəstək verməsi rəqabətli mühitin sürətli inkişafına imkan vermir. Rəqabətin zəifliyi şəraitində bankların maliyyələşdirməsi və göstərdiyi xidmətlərin keyfiyyəti aşağı səviyyədə qalır. Buna görə də dövlətin bu sahədə daha çox sahibkarların iştirakına imkan yaratması və zamanla bazarda öz dəstək tədbirlərini azaltması aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrində maddi texniki bazanın möhkəmləndirilməsində bank xidmətlərinin keyfiyyətinə də müsbət təsir edəcəkdir.

**Banklar üçün dəstək tədbirlərinin həyata keçirilməsi**. Aqrar sahədə maddi-texniki bazanın möhkəmləndirilməsində bank xidmətlərinin keyfiyyətinin yüksəldilməsi üçün orada fəaliyyət göstərən iqtisadi subyektlər ilə yanaşı banklara dəstəyin verilməsi ilkin mərhələdə səmərəli olar. Müxtəlif güzəşt tədbirləri ilə bankların aqrar sahəyə olan maraqlarını yüksəltmək mümkündür ki, bu da son nəticədə göstərilən xidmətlərin də keyfiyyətinin yüksəlməsinə imkan yaradacaqdır.

Aqrar sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi amillərinə texnoloji yeniliklərdən istifadəni, iri müəssisələrin sayının

artırılmasını və aqrar sahədə rəqabətli mühitin formalaşdırılmasını aid etmək olar. Qeyd edilən istiqamətlərin hər birinin əldə edilməsində əlavə maliyyələşməyə ehtiyac yaranır ki, bu da bankların təklif etdiyi xidmətlərə olan ehtiyacı artırmış olur. Azərbaycanda qeyd edilən amillər üzrə irəliləyişlər əldə edilsə də aqrar sahədə bank xidmətlərinin payı hələ ki aşağı səviyyədədir. Buna görə də bu istiqamətdə irəliləyişin əldə edilməsi üçün irəli sürdüyümüz təkliflərin nəzərə alınması həm aqrar sahədə bank xidmətlərinin keyfiyyətinin yüksəlməsinə, həm də aqrar sahənin ümumi inkişafına imkan yaradar.

Aqrar sektor iqtisadiyyatın digər sahələrindən fərqli olaraq təbiət hadisələrindən daha çox asılı olduğu üçün çox risklidir. Odur ki, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarların maliyyə riskini, onlara gələcəkdə baş verə biləcək təbiət hadisələrindən dəyən zərəri qarşılamaq üçün aqrar sığorta mexanizmlərinin həyata keçirilməsi zərurəti yaranır. Bu baxımdan, ölkədə aqrar risklərin idarə edilməsi və sığortalanması sahəsində fəaliyyətin təkmilləşdirilməsi məsələsi, dövlət dəstəkli sığorta mexanizmi yaradılması ilə bağlı tədbirlərin icrası aktuallaşmışdır və 2019-cu ildə ölkə başçısının müvafiq Fərmanı əsasında Aqrar Sığorta Fondu yaradılmışdır. Fond əkinlərin və heyvanların sığortalanmasını təşkil edir. Eyni zamanda sığorta haqqının yarısının dövlət tərəfindən ödənilməsi sahibkarlara özlərində olan həmin məbləğdə vəsaiti digər biznes ehtiyaclarına sərf etmək imkanı yaradır. Aqrar sektorda risklərin sığortalanması mexanizmindən səmərəli istifadə aqrar sektorda bank fəaliyyətinin stimullaşdırılmasına və dayanıqlığına da təsir edə bilər.

## ƏSAS NƏTİCƏLƏR

Tədqiqat işində Azərbaycanda aqrar-sənaye kompleksinin səmərəli inkişafının maliyyə-bank amilləri təhlili edilmiş və bu baxımdan əldə edilmiş aşağıdakı elmi nəticələr əsaslandırılmışdır:

1. Tədqiqatın nəzəri əsaslarının öyrənilməsi zamanı kənd təsərrüfatının inkişafı və səmərəliliyinin artmasının ərzaq təminatının yüksəlməsində böyük əhəmiyyətə malik olduğu müəyyən edilmişdir. Kənd təsərrüfatı inkişaf etdikcə məşğulluq səviyyəsi artır, yoxsulluq səviyyəsi azalır və kənd təsərrüfatının inkişafının əsas təsir etdiyi sosial-iqtisadi istiqamət ərzaq təminatıdır. Əhalinin minimal qida

məhsullarının təmin edilməsi həyati əhəmiyyət daşıdığından kənd təssərüfatının inkişaf etdirilməsini və ərzaq məhsullarına olan tələbatın qarşılanmasını qaçılmaz bir prosesə çevirmişdir.

2. Dissertasiyanın nəzəri-konseptual məsələlərində aqrar sektorda maliyyələşmənin funksiyaları və xüsusiyyətləri tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, bu sektor digər sektorlar ilə müqayisədə çox fərqlənməsə də onun xüsusiyyətləri əhəmiyyətli dərəcədə fərqlənir. Aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrində maliyyələşməsi çoxşaxəli və özündə böyük risklər daşıdığından, əksər hallarda dövlətlər bu sahənin inkişafına dəstək vermək məqsədilə müxtəlif maliyyə mexanizmləri ilə maliyyə təşkilatları üçün aqrar sektorda maliyyələşmənin risklərinin azaldılmasına çalışırlar. Azərbaycan hökuməti də dövlət qarantiyaları və güzəştli kreditlər vasitəsilə aqrar sahədə maliyyələşməni dəstəkləyərək bu sahədə səmərəliliyin yüksəldilməsinə çalışır.

3. Tədqiqat işinin beynəlxalq təcrübəyə həsr olunmuş hissəsində nəzərdən keçirdiyimiz ölkələrin iqtisadiyyatlarında kənd təsərrüfatının payının böyük olması bu sahənin inkişafının davamlılığının təmin edilməsi üçün hökumətləri müxtəlif proqramlar həyata keçirməyə, islahatlar tətbiq etməyə və təşkilatlar yaratmağa sövq etdiyi müəyyən olunmuşdur. İnkişaf etmiş dövlətlər aqrar sektorun maliyyələşdirilməsi zamanı innovasiyaların tətbiqi və təmiz texnologiyaların istifadəsinə daha çox üstünlük verdiyi halda, inkişaf etməkdə olan ölkələr regionlarda kənd təsərrüfatının maliyyələşdirilməsinin yüksəldilməsinə daha çox diqqət ayırırlar.

4. Aparılmış təhlillər nəticəsində son illərdə Azərbaycanda aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrinin maliyyələşdirilməsinin yüksək səviyyədə təmin edildiyi müəyyən edilmişdir. Aqrar sektora ayrılan maliyyə vəsaitlərinin həcmində böhran dövründə müəyyən azalma müşahidə edilsə də sonrakı illərdə yüksək artım qeydə alınmışdır. Son illərdə maliyyə təminatının yüksəldilməsi nəticəsində istər aqrar sektorun ümumi məhsulunda, istərsə də bu sahədə yaradılan ÜDM-in həcmində artım müşahidə edilmişdir. Bu isə onu göstərir ki, maliyyə təminatı bu sahədə səmərəli şəkildə həyata keçirilmiş və ayrılmış maliyyə vəsaitlərinin səmərəli formada xərclənməsi iqtisadi aktivliyi yüksəltməklə müsbət nəticələrin əldə

edilməsinə imkan yaratmışdır.

5. Aqrar sektorda bank xidmətlərinin inkişaf etdirilməsi digər sahələrlə müqayisədə özünəməxsus xarakterə malikdir. Bu aqrar sektorun təbii resurslarla və yarana biləcək təbii risklərlə daha çox əlaqəli olması ilə bağlıdır. Bununla yanaşı aqrar sahədə bank xidmətlərinin yayılması üçün zəruri infrastrukturun, innovativ fəaliyyətin və ixtisaslı kadrların olması da vacibdir. Uzunmüddətli perspektivdə aqrar sektorun maliyyələşdirilməsində bankların rolunun gücləndirilməsi və bunun üçün hazırda mövcud olan imkanlar hesabına zəruri şəraitin yaradılması önəmlidir. Aqrar sahənin maliyyələşdirilməsi, o cümlədən kreditləşmənin düşünülmüş qaydada aparılması məqsədilə ixtisaslaşdırılmış aqrar-sənaye bankı yaradılmalıdır. Bu aqrar sektorun gələcəkdə daha davamlı şəkildə maliyyələşdirilməsinə imkan yaradacaqdır.

6. Sahibkarlığın İnkişafı Fondunun maliyyə vəsaitləri aqrar sahədə müxtəlif layihələrin maliyyələşdirilməsində böyük rol oynamışdır. Müxtəlif istiqamətlər üzrə zəruri layihələrin həyata keçirilməsilə fond ümumi iqtisadi inkişafın əldə edilməsində iştirak etmişdir. Fondun xidmətləri vasitəsilə dövlət aqrar sahədə zəruri hesab etdiyi iqtisadi aktivliyi əldə edə bilmişdir. Fond eyni zamanda aqrar sahədə bank xidmətlərinin yayılmasında da yaxından iştirak edərək bank sektorunun aqrar sahəyə etibarının yüksəlməsinə təsir etmişdir.

7. Aqrar sektorun inkişafı üçün iri müəssisələrin olmasının əhəmiyyəti böyükdür. Belə müəssisələr məhsul istehsalının həcmini və səmərəliliyini yüksəltməyə imkan verir. İri müəssisələr xırda təsərrüfatları böyük həcmdə kapitala malik olan sahibkarlar ilə bir yerə toplamaqla daha yüksək nəticələrin əldə edilməsinə imkan yaradır. Aqrar sektorun inkişafını ləngidən məsələlərdən biri də verilən kreditlərin həcminin yüksək olmamasıdır. Aqrar sektorda daha çox müəssisənin yaradılmasına imkan yaratmaqla, dövlət zəmanətlərinin verilməsi, iri müəssisələrə güzəştlərin tətbiq edilməsi və digər tədbirlərlə banklar tərəfindən maliyyələşməsini yüksəltmək mümkündür.

8. Aqrar sahədə maddi-texniki bazanın möhkəmləndirilməsində bank xidmətlərinin keyfiyyəti bir sıra amillərin təsiri ilə formalaşır. Bu amillərə texnoloji yeniliklərdən istifadəni, iri müəssisələrin sayının artırılmasını və aqrar sahədə rəqabətli mühitin formalaşdırılmasını aid

etmək olar. Rəqabətli mühitin yaradılmasına imkan yaratmaq bank xidmətlərinin keyfiyyətini yüksəldilməsi üçün əsas amillərdən biridir. Azərbaycanda qeyd edilən amillər üzrə irəliləyişlər əldə edilsə də aqrar sahədə bank xidmətlərinin payı hələ ki aşağı səviyyədədir.

9. Aqrar sektor və kənd təsərrüfatı məhsulları emalı müəssisələrində istər ekoloji təmiz məhsulların, istərsə də ixrac yönümlü məhsulların maliyyələşdirilməsində banklar üçün özünəməxsus problemlər yaranır. Əsas problem aqrar sektorda mövsümiliyin böyük rol oynamasıdır, bu da istər ekoloji təmiz məhsulların, istərsə də ixrac yönümlü məhsulların istehsal prosesinin davamlı olmasına mane olur. Ümumilikdə, aqrar sahədə istehsalın maliyyələşdirilməsi problemlərinin aradan qaldırılması proqnozlaşdırma imkanlarının artırılmasına və hüquqi islahatların həyata keçirilməsinə əsaslanır. Bu isə dolayı olaraq aqrar sahədə kadr siyasətinin daha da təkmilləşdirilməsinə ehtiyac yaradır. Hüquqi islahatlar isə hər iki tərəfin maraqları nəzərə alınmaqla həyata keçirilməlidir ki, riskləri minimum səviyyəyə salmaq mümkün olsun.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**

1. **Ж.М.Эфендиева. Роль развития агропромышленного** комплекса в росте экономики Азербайджана. Qazfqaz Universiteti, . H.Əliyevin anadan olmasının 93 illiyinə həsr olunmuş Gənc tətqiqatçıların IV Beynəlxalq elmi komfrans, № 1, 2016, c.523

2. **J.M.Əfəndiyeva**. Kənd təsərrüfatının perspektiv sahəsi - tütünçülüyünün inkişafı. Qazfqaz Universiteti, . H.Əliyevin anadan olmasının 93 illiyinə həsr olunmuş Gənc tətqiqatçıların IV Beynəlxalq elmi komfrans, № 1, 2016, səh.524-525

3. **J.M.Əfəndiyeva.** Aqrar sənaye bölməsinin kreditləşməsinin dünya təcrübəsi. Kənd təsərrüfatının iqtisadiyyatı elmi-tədqiqat institutu, Elmi əsərlər. № 1, 2018, səh. 89-94

4. **J.M.Əfəndiyeva**. Aqrar Sənaye kompleksinin maliyyə-kredit təminatının səmərəliliyinin yüksəldilməsi istiqamətləri. "Naxçıvan" Universiteti, Elmi əsərlər. № 1 (24), 2022, səh. 95-101

5. **J.M.Əfəndiyeva.** Aqrar sektorda kredit siyasətinin formalaşması qaydaları. Sumqayıt Dövlət Universiteti, Azərbaycanın Xalq Cumhuriyyətinin 100 illik yubileyinə həsr olunan Beynəlxalq elmi konfrans. İqtisad təhlükəsizlik, mövcud vəziyyət və perspektivlər. Sumqayıt. 02-03 may 2018, səh. 274-276

6. **Ж.М.Эфендиева.** Современное состояние кредитования аграрного сектора в Азербайджане. Москва, Министерство сельского хозяйства РФ департамент научно-технологической политики и образования, Международный научный журнал. 2019. с. 31-36

7. **J.M.Əfəndiyeva.** Aqrar sənaye kompleksinin əhəmiyyətinin gücləndirilməsinin maliyyə amilləri. “Naxçıvan” Universiteti, Elmi əsərlər. 2022. №1 (24).

8. **J.M.Əfəndiyeva.** Aqrar sənaye müəssisələrinin maliyyə resurslarına çıxış imkanlarının müasir vəziyyəti. Azərbaycan Kooperasiya Universiteti “Kooperasiya” elmi-praktiki jurnalı. №1.

9. **Ж.**М. Эфендиева. Влияние глобальной коронавирусной пандемии на деятельность анрарно-промышленного комплекса в Азербайджане. Сборник статей CXI международной научно-практической конференции «Инновационные подходы в современной науке», Москва. 2023. № 3 (111) , с. 44-49



Dissertasiyanın müdafiəsi 24.04.2024-cü il tarixində saat 16:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 18.03.2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.03.2024.
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (40608 işarə). Tiraj 100.

*“AA – Poliqraf” istehsalat-kommersiya birliyində hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*
*Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809*